No: 02 2025
https://doi.org/10.64400/ndueej.031
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# ORDUBAD RAYONUNUN BİLƏV KƏNDİ: TARİXİ, ABİDƏLƏRİ

**Hacıfəxrəddin Səfərli**

https://orcid.org/0009-0007-1665-8906
Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan.
**Yazışılan müəllif:* seferli949@mail.ru; *Tel.: +994 603036875*

## XÜLASƏ

Məqalədə Ordubad rayonunun inkişaf etmiş yaşayış məskənlərindən biri olan Biləv kəndinin tarixindən və ərazisindəki abidələrdən bəhs olunur. Burada ilk növbədə "Biləv" oykonimi izah edilir, kəndin ərazisində mövcud olan tarixi abidələrdən Biləv yaşayış yeri, Babək qalası, Biləv qalası və Biləv körpüsü haqqında yığcam məlumat verilir. Həmşinin məqalədə kəndin ərazisində indiyədək qalan 10 ədəd epiqrafik abidə - kitabə tədqiqata cəlb olunmuşdur. Orta əsrlər dövrünə aid olan bu abidələrin təhlilinə əsasən aydın olur ki, kəndin əsası təxminən V-VII əsrlərdə qoyulmuş və o, inkişaf etmiş Orta əsrlər dövründə yüksək inkişaf səviyyəsində olmuşdur. Kənddə qeydə alınaraq tədqiq olunan daş qoç fiquru tipli qəbirüstü xatirə abidələri və onların üzərində həkk edilən kitabələr təsdiq edir ki, orada daş üzərində işləmə, bədii daşyonma sənəti üzrə mərkəz fəaliyyət göstərmiş və bu mərkəzdə dəyirman daşları, qoç fiquru tipli qəbirüstü xatirə abidələri və s. daş məmulatları hazırlanmışdır. Yerli əhali də şahidlik edir ki, kənddə "Elti dağı" və "Dəhnə dərə" adlı yerlərdə belə mərkəzlər fəaliyyət göstərmişdir. Böyük İpək Yolu marşrutları üzərində yerləşdiyi üçün kənd həmişə yüksək inkişaf səviyyəsində olmuşdur. Ona görə də Rusiya işğalından sonra Biləv 19 kəndi birləşdirən Biləv mahalının mərkəzi olmuşdur.

**Açar sözlər:** *Naxçıvan, Ordubad, Biləv, qala, yaşayış yeri, körpü, qoç fiquru, kitabə*

**Giriş.** Naxçıvan Muxtar Respublikasının tərkibində ayrıca inzibati-ərazi bölgüsü olan Ordubad rayonunda tarix və mədəniyyət abidələrinin zənginliyi ilə seçilən, inkişaf etmiş yaşayış məskənlərindən biri də Biləv kəndidir. Rayon mərkəzindən 35 km şimal-qərb tərəfdə yerləşən Biləv kəndi Ordubad bölgəsinin dağlıq ərazidə yerləşən nisbətən iri yaşayış məskənlərindəndir. Kəndin ərazisində indiyədək bir sıra tarix və mədəniyyət abidələri, o cümlədən yaşayış yeri, qalalar, qıbiristanlıqlar, körpü, epiqrafik abidələr və s. maddi-mədəniyyət nümunələri gəlib çatmışdır.

**"Biləv" oykonimi haqqında.** Muxtar respublikanın ən iri çaylarından olan Gilançayın sahillərində yerləşən kəndin adının (Biləv) mənası ilə əlaqədar kənd əhalisi arasında müxtəlif fikirlər vardır. Keçən yüzilliyin 80-ci illərinin əvvəllərində məlumat topladığımız bir qrup kənd sakininin fikrincə, kəndin Biləv adlanması onun keçmişdə çox böyük olması ilə əlaqədardır. Çox böyük olduğu üçün ona əvvəllər "min ev" və ya "min əv" deyilmiş, sonradan isə bu ad tədricən "Biləv" şəklinə düşmüşdür.

Başqa bir fikrə görə isə kəndin adı "Bülöv" sözünün təhrif olunmuş formasıdır. Bu fikri irəli sürənlər kəndin ətrafında indi də çoxluq təşkil edən bülöv daşlarına (itiləyici daşlara) istinad edirlər.

Kəndin yetirməsi, geologiya-mineralogiya üzrə fəlsəfə doktoru, doğulub boya başa çatdığı Biləv kəndi haqqında iri həcmli kitab yazan Həmid Aslanlı isə bu fikirlərlə razılaşmır. O, türk xalqları yaşayan bir sıra bölgələrdə, o cümlədən Naxçıvan Muxtar Respublikası ərazisində mövcud olan Biləv adlı yer adlarını təhlil edərək kəndin adının qədim türk tayfaların birinin adından götürülməsi fikrinə gəlmişdir (1, s. 83). Biz də, qədim və Orta əsrlər dövründə yaşayış məskənlərinin çoxunun adının tayfa adları ilə əlaqədar yaranması faktını əsas götürərək H.Aslanlının Biləv toponimi ilə əlaqədar

No: 02 2025
https://doi.org/10.64400/ndueej.031
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X



söylədiyi bu fikrin daha düzgün olması qənaətindəyik.

Kənddə qeydə alınan arxeoloji abidələr, tarix və mədəniyyət nümunələri onun zəngin tarixi keçmişindən xəbər verirlər.

**Biləv yaşayış yeri.** Bu yaşayış yerinin qaqlıqları kəndin müasir tikintilərinin altında qalmışdır. Mədəni təbəqəsinin qaqlınlığı 0,5-1,5 metrədək izıənilən yaşayış yerində şirli və şirsiz saxsı məmulatları (qəlyan, çıraq, küpə, nimçə və s.) aşkar edilmişdir. Əldə olunan maddi-mədəniyyət nümunələrinin təhlilinə əsasən demək olar ki, kəndin əsası İlk Orta əsrlər zamanı, təxminən V-VII əsrlərdə qoyulmuşdur (2, s. 178).

**Babək qalası.** Biləv kəndinin cənub-qərb tərəfində, Gilançayın sağ sahilində, yüksək dağın üzərində kənd əhalisi arasında "Babək qalası" adlandırılan müdafiə istehkamı vardır. Deyilənə görə, Xürrəmilər hərəkatının ən qüdrətli rəhbərlərindən olan Babək bu qalada olduğu üçün istehkam belə adlanmışdır. Qalaya qərbdən bir çıxış yolu vardır. Onun içərisində yaşayış binalarının qalıqları indiyədək qalmaqdadır. Tədqiqatçıların fikrincə, qaladan II-XIV əsrlərdə müdafiə məqsədi ilə istifadə olunmuşdur.

**Biləv qalası.** Müasir yaşayış məskəninin mərkəzində də müdafiə qalasının qalıqları qalmaqdadır. Kəndin adı ilə "Biləv qalası" adlandırılan bu qalanın qalıqları "Taxtır" adlanan təpənin üstündə yerləşir. Zaman keçdikcə qalanın divarları güclü şəkildə dağıntıya məruz qalmış, divar qalıqları bəzi yerlərdə izlənməkdədir. Qalanın ərazisində dördkünc formalı yaşayış evlərinin izləri qalır. Qaladan Orta əsrlər zamanı xarici müdaxilələr vaxtı müdafiə məqsədi ilə istifadə olunmuşdur. Əldə olunan maddi-mədəniyyət nümunələrinə əsasən qalanı Erkən Orta əsrər dövrünə, təxminən VII-X əsrlərə aid etmək olar (2, s. 178-179).

Yaşayış məskənində indiyədək qalan Orta əsrlər dövrünə aid maddi-mədəniyyət nümunələrinin, xüsusilə kəndin cənubunda möhtəşəm körpünün, yaşayış məskəninin müxtəlif yerlərində beşdən artıq Orta əsr qəbiristanlığının, bu qəbiristanlıqlarda başdaşı, sənduqə, xüsusilə daş qoç fiquru tipli (onların sayı 50-dən artıq olmuşdur (1, s. 61) və bu fiqurlarının çoxluğuna görə Biləv kəndi Naxçıvan Muxtar Respublikasında birinci yerdədir) qəbirüstü xatirə abidələrinin olması, bu abidələrin üzərində kitabələrin həkk edilməsi onun Orta əsrlər zamanı yüksək inkişaf səviyyəsində olmasından xəbər verən gözəl nümunələrdir.

**Biləv körpüsü.** Biləv kəndinin cənub tərəfində orta əsrlər zamanı Gilançay üzərində inşa olunmuş körpü vardır. Zəmanəmizədək yarımuçuq vəziyyətdə gəlib çatan qalıqlarına əsasən demək olar ki, körpünün uzunluğu təxminən 60 metr, eni 4 metrə yaxən, hündürlüyü 7-8 metr olmuşdur. Hazırda ancaq şərq tağı salamat qalan körpünün uzunluğuna əsasən onun inşa edilərkən 4 və ya 5 aşırımlı olduğunu söyləmək olar. Orta əsr Biləv kəndi Böyük İpək yolunun üstündə, mühüm karvan yollarının qovşağında yerləşirdi. Bir tərəfdən Gilan şəhərini və Plovdağdakı, Sabirkənddəki yaşayış məskənlərini, o biri tərəfdən də Naxçıvan və Culfa şəhərlərini, Əlincəçay vadisindəki yaşayış məskənlərini Zəngəzurla və Qarabağla birləşdirən karvan yolları Biləvdən keçirdi (1, s. 138).

Körpünün üstündə epiqrafik sənəd - kitabə olmadığı üçün onun inşa tarixi haqqında dəqiq və sanballı elmi fikir söyləmək mümkün deyildir. Geologiya- minerologiya üzrə fəlsəfə doktoru H.Aslanlı onu Xudafərin körpüləri ilə eyni dövrə aid edir (1, s. 58). Bizim fikrimizcə, körpü XVI-XVII əsrlərdə, ehtimal ki, I Şah Abbas dövründə (1587-1629-cu illər) inşa edilmişdir.

Kəndin köhnə məscidinin şərq tərəfində, qoç fiqurları olan qəbristanlığın yaxınlığında el arasında "Tay çuxuru" adlanan yer vardır. Keçmişdə burada karvanlar dayanar, dincələr və alver

No: 02 2025
https://doi.org/10.64400/ndueej.031
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

edərlərmiş. “Tay çuxuru” ehtimal ki, dəvələrin dincəlməsi üçün onların yüklərinin – tayların yığıldığı yer olmuşdur.

Kəndin cənubdan girişində, sağ tərəfə, yoldan təxminən 1,5 km aralı, şərqdə “Elti dağı” deyilən yer vardır. Orada iri dəyirman daşları qalmışdır. Əhalinin dediyinə görə orada zəyərək əzib yağını çıxarırmışlar.

Babək qalasının şimal tərəfindən gedən yol el arasında “Karvan yolu” adlanır. Şərqdən gələrək bu yol ilə hərəkət edən karvanlar gedib Culfa rayonundakı Qotur Dizə (Kərim qulu dizə) kəndindən keçərək Yaycı düzünə, oradan Naxçıvana, Ordubada və Cənubi Azərbaycana gedirmiş. Bu yolun üstündə, Babək qalasından qərbdə, “Dəhnə dərə” adlanan yerdə daş üzərində işləmə üzrə mərkəz olmuşdur. Orada sərt ağ daşdan dəyirman daşları düzəltdirmişlər. Bura el arasında “Daşkəsən” adlanır.

Ticarət yollarından biri qərbdən, Kırna kəndi tərəfdən gələrək Gilançay üzərindəki Biləv körpüsündən keçərək Şam (indiki Gilançay) kəndinin şimalından keçərək Çənnəbə, oradan Orta əsr Əylis şəhərinə, oradan da Ordubad şəhərinə, daha sonra şərqə gedirmiş.

Biləv kəndinin cənub tərəfində, Gilançayın sol sahilində “Abdal dağı” deyilən dağ vardır. Ehtimal ki, Babək qalasından şimal-şərq tərəfdə yerləşən bu dağ həmin ərazidə fəaliyyət göstərən sufi-təriqəti mənsubları – abdal gələndərlər ilə əlaqəli olduğundan belə adlanmışdır.

Kəndin cənub hissəsində “Carçı dağı” deyilən şiş qaya vardır. Yaşlı sakinlərin fikrincə, Orta əsrlər zamanı hamı eşitsin deyə carçılar həmin qayanın üstünə qalxaraq oradan hər hansı bir məsələ ilə əlaqədar xəbər verilərmiş.

**Epiqrafik abidələr.** Biləv kəndinin müxtəlif yerlərində Orta əsrlər dövrünə aid 5 qəbiristanlıq vardır. Bu qəbristanlıqlarda zəmanəmizədək bir neçə epirafik sənəd – məzar kitabəsi gəlib çatmışdır. Bu kitabələr əsasən sənduqə və daşdan hazırlanmış qoç fiquru tipli qəbirüstü xatirə abidələri üzərində həkk olunmuşlar. Keçən yüzilliyin 80-ci illərinin əvvəllərində kənddə tərəfimizdən epiqrqfik tədqiqatlar aparılmış və bir neçə məzar kitabəsi tədqiq edilərək elmi dövriyyəyə daxil edilmişdir (3). Sonralar da, bu tədqiqatlar davam etdirilmişdir:

1. Qırmızımtıl rəngli daşdan hazırlanmış bir sənduqə (142x29x30 sm) üzərində həkk olunmuş kitabə müəyyən qədər aşınmaya məruz qalmış, bəzi yerləri oxunmaz hala düşmüşdür. Ərəb dilində həkk olunan kitabənin mətnindən oxunan sözlərin tərcüməsi belədir:

“Onun sahibi Hüseynin oğlu...Ey Əli! 909-cu il”.

**909 h.i. = 26.06. 1503-13.06. 1504-cü il.**

Kitabəni ilk dəfə M.Nemət tədqiq etmişdir (3, s. 71).

2. Qırmızımtıl rəngli daşdan hazırlanmış daş qoç fiquru tipli qəbirüstü xatirə abidəsinin (106x56x34 sm) üzərində kitabə. Fiqurun sağ yanında həkk olunan kitabənin mətni tarixdən ibarətdir:

“1038-ci il”.

**1038 h.i. = 31.08. 1628-20.08. 1629-cu il.**

Qoç fiqurunun belində həkk edilən kitabənin bir hissəsi, yəni mərhumun adı aşınaraq ovulmuşdur. Kitabədən ancaq bu sözlər oxunmuşdur:

“Onun sahibi... “.

**Kitabəni XVII əsrə aid etmək olar.**

Kitabəni ilk dəfə M.Nemət tədqiq etmişdir (3, s. 84).

3. Kəndin şərq tərəfindəki, təpənin üzərində yerləşən qəbristanlıqda bir neçə qoç fiquru üzərində həkk edilmiş kitabə tədqiq olunmuşdur. Qırmızımtıl rəngli daşdan hazırlanmış qoç fiquru (80x35x27 sm) üzərindəki kitabə tamamilə salamat qalmışdır. Fiqurun sol yanında nəsx xətti ilə oyma yolu ilə ərəb dilində həkk edilmiş kitabənin mətninin tərcüməsi belədir:

"Onun sahibi Övliya Quludur. 1075-ci il" (4, s. 53).

**1075 h.i. = 25.07. 1664-13.07. 1665-ci il.**

Fiqurun bədəni salamat olsa da ayaqları sınmışdır.

Kitabəni sonralar M.Nemət də tədqiq etmişdir (3, s. 86).

4. Qəbiristanlıqda qırmızımtıl rəngli daşdan hazırlanmış daş qoç fiquru tipli başqa bir qəbirüstü xatirə abidəsi (103x60x76 sm) üzərində həkk edilmiş kitabə də salamat vəziyyətdədir. Ancaq fiqurun ayaqları sınmışdır. Hazırda Naxçıvan şəhərindəki "Naqxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin həyətində mühafizə olunan və nümayiş etdirilən abidənin sol yanında oyma üsulu ilə nəsx xətti ilə ərəb dilində kitabə həkk edilmişdir. Kitabənin mətninin tərcüməsi belədir:

"Onun sahibi Zeynal Bəkiridir. 1078-ci il" (4, s. 85-86).

**1078 h.i. = 23.06. 1667-10.06. 1668-ci il.**

Kitabəni sonralar M.Nemət də tədqiq etmişdir (3, s. 87).

5. Qırmızımtıl rəngli daşdan hazırlanmış daş qoç fiquru tipli qəbirüstü xatirə abidəsi (172x22x36 sm) üzərində kitabə oyma yolu ilə nəsx xətti ilə ərəb dilində həkk edilmişdir. Biz kənddə ilk dəfə olarkən bu qoç fiquru qəbiristanlığa qalxan yolun kənarında olan yarımuçuq məscidin divarına hörülmüş vəziyyətdə idi. Kitabəsi divarın içərisində olduğu üçün görünmürdü. Kəndə sonrakı səfərlərimiz zamanı məscidin divarının uçduğunun və fiqurun yerə düşdüyünü gördük. Həmin vaxt fiqurun üzərindəki kitabəni tədqiq etdik. Kitabənin mətninin tərcüməsi belədir:

"Onun sahibi Niyazəlinin oğlu Nəcəfdir. 1080-ci il" (4, s. 54).

**1080 h.i. = 01.06. 1669-20.05. 1670-ci il.**

Kitabəni sonralar M.Nemət də tədqiq etmişdir (3, s. 87).

6. Kənddə daş qoç fiquru tipli başqa bir qəbirüstü xatirə abidəsi (110x57x28 sm) üzərində həkk edilən kitabə də tədqiq olunmuşdur. Ərəb dilində iki sətirdə oyma yolu ilə həkk edilmiş kitabənin mətninin tərcüməsi belədir:

"Onun sahibi Səfərəlidir. 1088-ci il. Abidin işidir".

**1088 h.i. = 06.03. 1677-22.02. 1678-ci il.**

Kitabəni ilk dəfə M.Nemət tədqiq etmişdir (3, s. 87).

7. Qırmızımtıl rəngli daşdan hazırlanmış daş qoç fiquru tipli qəbirüstü xatirə abidəsi (64x66x24 sm). Fiqurun ayaqları sınmışdır. Üzərindəki kitabə tam oxunmamışdır. Mətni belədir:

"Onun sahibi...1094-cü il".

**1094 h.i. = 31.12. 1682-19.12. 1683-cü il.**

Kitabəni ilk dəfə M.Nemət tədqiq etmişdir (3, s. 89).

8. Kənddə boz rəngli daşdan hazırlanmış başdaşı tipli xatirə abidəsi üzərində də kitabə (54x40x7 sm) tədqiq olunmuşdur. Ərəb dilində nəsx xətti ilə həkk edilmiş kitabənin mətninin tərcüməsi belədir:

"Onun sahibi Pəridir. 1101-ci il".

**1101 h.i. = 15.10. 1689-04.10. 1690-cı il.**

Kitabəni ilk dəfə M.Nemət tədqiq etmişdir (3, s. 89).

No: 02 2025
https://doi.org/10.64400/ndueej.031
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X



9. Qırmızımtıl rəngli daşdan hazırlanmış daş qoç fiquru tipli qəbirüstü xatirə abidəsi üzərində kitabə güclü aşınmaya məruz qalsa da, oxunması mümkün olmuşdur. Ərəb dilində həkk edilmiş kitabənin mətninin tərcüməsi belədir:

"Onun sahibi Muradın oğlu Salmandır".

Kitabədə tarix qeyd olunmamışdır.

**Oxşar abidələrlə müqayisə edərək XVII əsrə aid etmək olar.**

10. Kənddə qırmızımtıl rəngli daşdan hazırlanmış qoç fiquru tipli başqa bir qəbirüstü xatirə abidəsi üzərində də həkk edilən kitabə tədqiq olunmuşdur. Fiqurun yan tərəfində ərəb dilində həkk edilən kitabə güclü aşınmaya məruz qalmışdır. Kitabənin mətnindən aşağıdakı sözlər oxunmuşdur:

"Onun sahibi Mərdandır. ...ay... ".

Kitabənin tarix yazılan hissəsi aşınaraq məhv olduğu üçün oxunması mümkün olmamışdır. Ancaq orada qeyd olunan "ay" sözündən aydın olur ki, mətndə kənddəki digər abidələrdən fərqli olaraq mərhumun vəfat etdiyi ay da qeyd olunubmuş.

**Digər kitabələrlə müqayisə edərək XVII əsrə aid etmək olar.**

Kənddə tədqiq olunan qoç fiquru tipli qəbirüstü xatirə abidələri təxminən bir əsrlik dövrü əhatə etməklə, formasına, materialına, kitabələrin məzmununa, xətt xüsusiyyətlərinə görə çox oxşadırlar. Ancaq bir fiqur (№ 6) istisna olmaqla bu abidələrin heç birinin üzərində onları hazırlayan ustanın adı qeyd olunmamışdır. Bir fiqurun üstündə mərhum haqqında məlumat verən kitabənin sonunda "Abidin işidir" sözləri həkk edilmişdir. Bu abidə hicri 1088-ci ildə hazırlanmışdır. Fikrimizcə, Biləv kəndində indiyədək qalan qoç fiquru tipli xatirə abidələrinin bir qismini, ən azından hicri 1075-ci ildə vəfat etmiş Övliya Quluya, hicri 1078-ci ildə vəfat etmiş Zeynal Bəkiriyə, hicri 1080-ci ildə vəfat etmiş Nəcəf Niyazəli oğluna və s. fiqurların Abid tərəfindən hazırlandığını ehtimal etmək olar.

Həm də, qeyd olunan əlamətləri imkan verir deyək ki, bu xatirə abidələri hamısı eyni mərkəzdə hazırlanmışlar. Qətiyyətlə demək olar ki, bu abidələr, həmçinin "Elti dağı"nda indiyədək qalan dəyirman daşları kəndə kənardan gətirilməmiş, "Dəhnə dərə"sində fəaliyyət göstərən və əhali tərəfindən "Daşkəsən" adlandırılan daş üzərində işləmə mərkəzində yerli sənətkarlar tərəfindən hazırlanmışdır. Fikrimizcə, bu mərkəz ətraf kəndlərin əhalisini də qeyd olunan məhsullarla (qəbirüstü xatirə abidələri, dəyirman daşları, dibək daşları və s.) təmin etmişdir.

**Nəticə.** Biləv kəndinin ərazisində qeydə alınaraq tədqiq olunan bu abidələr onun Orta əsrlər zamanı yüksək inkişaf səviyyəsində olmasından xəbər verən ən sanballı örnəklərdir. Fikrimizcə, bu inkişafın nəticəsi idi ki, Biləv kəndi XIX əsrin I yarısında, Rusiyaya birləşdirildikdən sonra Ordubad dairəsində yaradılan 5 mahaldan biri Biləvin adı ilə adlandırılmış, Biləv kəndi isə 19 kəndi (Yuxarı Aza, Aşağı Aza, Der, Yaycı, Subatan dizə, Kələntər dizə, Mirzə Həsən dizə, Hüseynəli bəy dizə, Xudaverdi bəy dizə, Biləv, Behrud, Parağa, Tivi, Bist, Ələhi, Xurs, Dərə Nürgüt, Nəsirabad, Kərimqulu dizə) birləşdirən bu mahalın mərkəzi olmuşdu (5, s. 623-630). Mahal Naxçıvan ərazisində qədim zamanlardan məskunlaşmış Kəngərli tayfasına mənsub adamlar tərəfindən idarə olunmuşdur.

Çar Rusiyası müstəmləkəçiliyi və Sovet hakimiyyəti illərində Ordubad bölgəsinin əsas yaşayış məskənlərindən biri kimi mövcud olan Biləv kəndi hazırda, müstəqillik dövründə böyük inkişaf yolu keçmiş və Ordubad rayonunun ikişaf etmiş yaşayış məskənlərindən birinə çevrilmişdir. Hətta, kəndin yaxınlığında, cənub tərəfdə Gilançayın üzərində su-elektrik stansiyası inşa edilmişdir.

2010-cu ildə istifadəyə verilən bu stansiya Naxçıvan Muxtar Respublikası əhalisinin elektrik enerjisinə olan tələbatının 17 faizini ödəyir.

## ƏDƏBİYYAT SİYAHISI:


1. Aslanlı H. Biləv. Bakı: "E.L". Nəşriyyat və Poliqrafiya Şirkəti MMC, 2008.
2. Baxşəliyev V., Seyidov A., Qədirzadə Q., İbrahimli B. Qədim Ordubad. Naxçıvan: "Əcəmi" NPB, 2014, 312 s.
3. Неймат М.С. Корпус эпиграфических памятников Азербайджана. Том III. Баку: XXI – Yeni Nəşrlər Evi, 2001, 216 с.
4. Сафаров Ф. Арабо-персоязычные надписи Нахичеванской АССР (XVI-XIX вв) как историко-культурные памятники. Диссертация на сосискание ученой степени канд. ист. наук. Баку, 1987, 179 с. НАИИ НАН Азербайджана. Инв.№ 8383.
5. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. Санкт-Петербург, 1852, 1231 с.


### РЕЗЮМЕ

### СЕЛО БИЛАВ ОРДУБАДСКОГО РАЙОНА: ИСТОРИЯ, ПАМЯТНИКИ

**Гаджифахреддин Сафарли**

В статье рассматривается история и памятники села Биляв — одного из развитых населённых пунктов Ордубадского района. В первую очередь разъясняется ойконим «Биляв». В работе приводится краткая информация о таких исторических памятниках, расположенных на территории села, как поселение Биляв, крепость Бабек, крепость Биляв и Билявский мост. Также в исследование включены 10 эпиграфических памятников — надписей, сохранившихся на территории села. Анализ этих памятников, относящихся к Средневековью, показывает, что село было основано примерно в V–VII веках и достигло высокого уровня развития в средневековый период. Надгробные памятники в виде фигуры барана и надписи, высеченные на них, свидетельствуют о существовании в селе центра по художественной обработке камня. В этом центре производились жернова, надгробия в форме баранов и другие каменные изделия. Местные жители утверждают, что такие центры функционировали в местах под названиями «Элти дагы» и «Дегне дере». Благодаря своему расположению на маршрутах Великого Шёлкового пути село всегда находилось на высоком уровне развития. Поэтому после российского завоевания Биляв стал центром Билявского магала, объединяющего 19 сел.

**Ключевые слова:** *Нахичевань, Ордубад, Билав, крепость, поселение, мост, фигура барана, надпись.*

### SUMMARY

### BILAV VILLAGE OF ORDUBAD DISTRICT: HISTORY, MONUMENTS

**Hajıfakhraddın Safarlı**

This article discusses the history and monuments of Bilev village, one of the developed settlements of the Ordubad district. First, the toponym "Bilev" is explained. The article provides brief information about historical monuments located in the village, including the Bilev settlement, Babak Fortress, Bilev Fortress, and Bilev Bridge. Additionally, 10 epigraphic monuments (inscriptions) that have

survived in the area have been studied. Based on the analysis of these medieval monuments, it becomes evident that the village was founded approximately in the 5th–7th centuries and reached a high level of development during the Middle Ages. The memorial gravestones in the form of ram figures and the inscriptions carved on them indicate the existence of a center for stone carving and decorative stonecraft in the village. It is known that this center produced millstones, ram-shaped tombstones, and other stone products. Local residents confirm that such centers once operated in areas known as "Elti Mountain" and "Dəhnə Valley" within the village. Due to its location on the routes of the Great Silk Road, the village has always experienced a high level of development. Therefore, after the Russian occupation, Bilev became the center of the Bilav administrative region, which included 19 villages.

**Keywords:** Nakhchivan, Ordubad, Bilev, fortress, settlement, bridge, ram figure, inscription